UNEC rektorunun 159/1/2016 saylı 11 oktyabr 2016-cı il tarixli əmrinə əsasən oktyabr- noyabr aylarında Azərbaycan Dövlət İqtisad Universitetində **"Elm aylığı"** keçiriləcəkdir.

Elm aylığı çərçivəsində **"Azərbaycanın sosial-iqtisadi inkişafı: nailiyyətlər və perspektivlər"** mövzusunda UNEC-in professor-müəllim heyətinin, gənc tədqiqatçı, magistr və tələbələrinin elmi məqalələrinin müsabiqəsi elan edilir.

Məqalələrin tərtibinə aşağıdakı tələblər qoyulur:

• Məqalələrdə müəllifin adı, atasının adı və soyadı, elmi dərəcəsi, vəzifəsi, iş yeri, elektron ünvanı və əlaqə nömrəsi bildirilməlidir.

• Məqalələrin həçmi tələbə və magistrantlar uçun 3 səhifədən (A4), professor-müəllim heyəti və gənc tədqiqatçılar uçun isə 6 səhifədən (A4) çox olmamalıdır. Məqalələr 12 ölçudə, 1.5intervalla, Times New Roman şrifti ilə yazılmalı, kənarlardan (soldan 25mm, sağdan 10mm, yuxarıdan 25mm, aşağıdan 20mm) boşluq buraxılmalıdır. Tezislərə azərbaycan, rus və ingilis dillərində xulasə və açar sözlər verilməlidir.

• Müsabiqəyə təqdim olunacaq məqalələr azərbaycan, rus və ingilis dillərində yazıla bilər. İstinad olunan ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içində göstərilməlidir (məsələn; 1, səh.15).

• Məqalələrdə yenilik, səmərəlilik və faydalılıq nəzərə çarpmalıdır.

• Məqalələr Təşkilat Komitəsi tərəfindən qiymətləndirilərək seçiləcəkdir.

• Məqalələrin qəbulu və seçilməsi 2016-cı il oktyabr ayının 31-nə dək aparılacaqdır.

• I, II və III yerləri tutan qaliblər mukafatlandırılacaqdır. Məqalələrinizi UNEC-in "Elm" şöbəsinə təqdim edə bilərsiniz.

**Əlaqə telefon: (012) 492-72-98**